*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 mart 2019-cu il № 22 (2339) Qiyməti 30 qəpik


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 mart 2019-cu il.*

## “Başda Dağlıq Qarabağ problemi olmaqla bütün məsələlərdə Azərbaycanın yanındayıq”

1970-ci illərdən başlayaraq ASALA başda olmaqla erməni terror təşkilatları diplomatlarımızı və hərbçilərimizi qətlə yetirməyə başlayıblar. Türkiyə üçün canlarından keçən bütün qəhrəmanlarımızın xatirəsini həmişə olduğu kimi, Çanaqqala dəniz zəfərinin ildönümündə də məhəbbətlə anırıq.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyə xarici işlər nazirinin müavini Yavuz Selim Kıran Çanaqqala dəniz döyüşləri zəfərinin 104-cü ildönümü ilə bağlı deyib.

Nazir müavini bildirib ki, Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir, biz sevincimizi və kədərimizi bir yerdə bölüşməkdən qürur duyuruq. Çanaqqala döyüşlərində təkcə türkiyəlilər yox, eləcə də ayrı-ayrı şəhərlərdən, o cümlədən Bakıdan gələn qəhrəmanlar iştirak ediblər. Bu döyüş tarixi zəfər olaraq torpaqlarımıza göz dikənlərə qarşı bir dərs olub.

"Türkiyə başda Dağlıq Qarabağ problemi olmaqla bütün məsələlərdə Azərbaycana dəstək verməkdən heç zaman çəkinməyib. Bundan sonra da hər zaman Azərbaycanın yanında olacağıq. Çanaqqala zəfərinin qazanılmasında və şəhidlərimizin xatirəsinin yad edilməsində hər zaman bizimlə birlikdə olan azərbaycanlı qardaşlarımızı sevgi və hörmətlə salamlayırıq".

## Novruz tonqalından Qələbə tonqalına!

Dünənəcən yazın havası duyulurdu, indi hər könüldə bir "Bahariyyə" var deyə bu gün dünənə bənzəmir, sabah bu günə bənzəməyəcək. Azərbaycan əsgəri sayımız qədər "Bahariyyə"ni bir tonqal ətrafında cəmləşdirəcək. O tonqal Böyük Qələbənin tonqalı olacaq. Azərbaycan əsgəri builki yazı Lələtəpə, Bayraqtəpə, Günnüt ovqatlı yaz bilir...

Ağacların budaqlarında tumurcuqların sayı ilk çərşənbədən bu yana hər gün artıb, sayıla-sayıla sayılmaz olub, sonra tumurcuqlar çiçəkləyib. İlk çərşənbədən bəri torpaqdan yaşıllıq cücərir - qönçələr ləçəkləyib, dağ çaylarının "qırışığı açılıb", bulaqların zümzümələşən, həzinləşən, incələşən səsi daha aydın eşidilir...

İlin-günün bu vaxtı neçə illərdi narahat ruhuma göyqurşağı bildiyimiz bir istəyin, bir murazın cazibəsindəyəm - ön xətdə əsgərlərimizin əhatəsində olmaq istəyirəm. Könlümü bir ocaq istisi, bir ocaq işığı çəkir. Bu, ərköyünlükdümü, ruhun arşını əyilmiş dünyaya dünyəvi istəyini duymaqdımı, yerə-göyə sığmayan həmin dünyəvi istəyin çılğınlığıdımı?, - bilmirəm. Bildiyim budur ki, könlüm ocaq istəyir. Ocaq yox, ocaq bir ev üçündü, ocağın könülləri coşduran şöləsi olmur. Könlümə Dədə Qorqudun yozum verdiyi tonqal düşüb. İstisi göylərə bülənd olası tonqal, gecənin qaranlığını zərrə-zərrə əridəsi, işığı yaxın-uzaq işıqlara kəmənd olası tonqal.

Elə tonqal ki, duyumlular onun goy üzünə yayılan şöləsindən mətləb oxuya bilsin.

Elə tonqal ki, gecənin gecə vaxtı sözü sözə, közü közə, səsi səsə birnəfəsə toxuya bilsin.

Elə tonqal ki, ürəklərin qubarını biryolluq kürüyə bilsin, doğmalığının qüdrətiylə yerigöyü könül xoşluğuna büryə bilsin.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri "Açıq qapı" günü tədbirində iştirak edib

*Martın 17-də Novruz bayramı ərəfəsində hərbi hissələrdə əsgər valideynləri və yaxınlarının, ictimaiyyət nümayəndələri və mədəniyyət işçilərinin iştirakı ilə "Açıq qapı" günü keçirilib.*





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti hərbi hissələrdən birində keçirilən "Açıq qapı" günündə olub və şəxsi heyətlə birlikdə bayram şənliyində iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə hərbi hissəyə gələn vətəndaşlar yaradılan şəraitlə yaxından tanış olub, xidməti və inzibati binalara, əsgər yataqxanaları və yeməkxanaya baş çəkiblər.

Nazirliyin rəhbərliyi ilə keçirilən görüşdə valideynləri maraqlandıran məsələlər müzakirə olunub və onların sualları cavablandırılıb. Əsgər valideynlərini dinləyən Müdafiə naziri bir sıra məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verib.

Şəxsi heyət üçün təşkil olunan bayram konsertindən sonra Müdafiə naziri hərbi qulluqçular və ziyarətçilərlə birlikdə bayram süfrəsi arxasında nahar ediblər.

## Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, Azərbaycanımız naminə çətin, lakin şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Təbiətin əbədi qanunları və kainatın dəyişməz nizamı ilə əlaqədar olan Novruz bayramı ənənələrinin qorunub saxlanılması milli-mənəvi dəyərlərimizə hörmət və sevginin təzahürüdür.

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi olaraq bu gün Novruz ümumxalq və dövlət bayramı səviyyəsində ölkəmizin hər bir bölgəsində böyük izdihamla, ruh yüksəkliyi ilə qeyd edilir.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində müstəqil Azərbaycanda vətəndaş həmrəyliyi əldə olunub. Ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub, iqtisadiyyatımızın fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib.

Ölkəmizin müdafiə qüdrətinin artırılması istiqamətində atılan uğurlu addımlar hərbi qulluqçularımızın qələbə əzmini daha da möhkəmləndirir. Günü-gündən güclənən Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatlarındakı qələbələri sayəsində işğaldan azad olunmuş torpaqlarımızda və strateji əhəmiyyətli yüksəkliklərdə bu gün Azərbaycan bayrağı vüqarla dalğalanır. Bütün bunlar son illər ordu quruculuğu istiqamətindəki islahatlar nəticəsində qazanılan nailiyyətlərin məntiqi nəticəsidir.

Xalqımızın və ordumuzun şəxsi heyətinin iştirakı ilə 2018-ci ildə keçirilən Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan möhtəşəm paradlar ölkəmizin müdafiə gücünü bir daha təsdiqlədi.

İrimiqyaslı təlimlərdə peşəkarlığını, döyüş qabiliyyətini artıran şəxsi heyət Vətən qarşısında vəzifə borcunu şərəflə və vicdanla yerinə yetirməyə davam edir.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, yeni qələbələr əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Respublikamızın suverenliyinin, müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsini ehtiramla yad edir, onlara Tanrıdan rəhmət diləyirəm. Eyni zamanda şəhid ailələrini və torpaqlarımızın müdafiəsi uğrunda düşmənlə savaşda sağlamlığını itirən döyüşçülərimizi, hörmətli veteranlarımızı da bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi gözəl Bahar bayramı münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

**(Əvvəli 1-ci səhifədə)**

Elə tonqal ki, onu səngərlərdə var səsiylə "Səngərləri sərhədlərə köçürəcəyik!" - deyənlərin könül dünyasının səyyarəsi bilib biz də əsgərləşək. Əsgərləşək - Vətənləşək.

Elə tonqal ki, çırtıltısına bir niyyətin şeiri-şeiriyyəti deyək, vətəndaşın Vətənə dönməz sədaqəti deyək...

Yazın nəfəsimi nəfəsimizə sarılır, nəfəsimizmi yazın nəfəsinə, dürüst bilmirəm. Bu ünsiyyəti, bu munisliyi ömrümüzə Novruz payı bilirik...

# Novruz tonqalından Qələbə tonqalına!



Torpağın canına hərarət gəlir - yaz gəlir, bir şeirdə deyildiyi kimi, təbiətə xoş avaz gəlir. Şeir biçimli bu avazı ruhumuza köçürmək keçir könlümüzdən. Nə illah ediriksə, könlümüz açılmır. İllərdən bəri könül mülkümüzü bürümüş qəhər yüklü duman çəkilmir. Azərbaycan əsgərinin niyyəti, döyüş ruhu, qələbə əzmi görünməmiş yel əsdirəcək, bu yeli gözləyənləri tonqalların dövrəsinə tələsdirəcək...

Azərbaycan əsgəri bu il xəyallarda qalanmış tonqalları yer üzünə endirəcək, xəyalları mızı gerçəkləşdirəcək. Bu gerçəkləşdirmənin fədailəri yaxın vaxtlarda məmləkəti Ali Baş Komandanın döyüş əmriylə bu gerçəkliyin işığına qərq edəcək. O işıq Qələbə tonqalının işığı olacaq. Bu tonqal nə vaxt qalansa, onu ruhumuzun Novruz tonqalı biləcəyik, onu Novruz tonqalı kimi əhatələyəcəyik, hansı fəsil olursa-olsun, həmin günə ruhumuzun Novruzu deyəcəyik. İllərlə ruhumuzda qalanan tonqala bu tonqalın süd anası deyə bilərikmi? - kaş ki, oda-ocağa mehr-ülfət eşqinə belə deyə biləydik...

Yazın nəfəsi torpağı isidir. Görəsən, yazın gəlişi işğalda qalan torpaqlarımızı isidirmi, isidə bilirmi?

Azərbaycan əsgərinin çatacağı o möhtəşəm tonqala narahat ruhumuzun tonqalı deyəcəyik...

Bu gün Novruz bayramıdı...

Novruz könül bayramıdı, könül xoşluğu bayramıdı. Sözü sözdən seçəli eşitdiklərimi ömrümə qazanc bilmişəm. "Könül xoşluğu könül rahatlığıdı", - anam belə deyərdi. Könül rahatlığımız torpaqlarımızla birgə işğal olunub. "Azərbaycan əsgəri torpaqlarımızı da işğaldan azad edəcək, könül rahatlığımızı da" - Novruz tonqalları bu niyyətlə qalanacaq. Bu niyyət inamdı, etibardı, güvəncdi. Məmləkətin Azərbaycan əsgərinə inamı, etibarı, güvənci...

Türkdilli xalqların inanc sistemində Novruzu müqəddəsləşdirən amillərdən biri kimi Novruz bayramına qədər dörd çərşənbə də bayramdı. Bayramın çərşənbələrini də, özünü də ön xətdə, səngərlərdə qarşılayan Azərbaycan əsgərinin tonqal başında könlündən keçənləri xalqın adından ən dəyərli, ən müqəddəs niyyət-muraz bilirəm. Müqəddəsliyə sədaqət Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətin tərkib hissəsidi; Azərbaycan Ordusunun şəxsi heyətinin hərbi xidmət amalı həm də budur...

Müdafiə naziri general-polkovnik Zakir Həsənov genişmiqyaslı təlimlər vaxtı Yel çərşənbəsini ön xətdə əsgərlərlə qarşıladı. Novruz bayramının adətləri könül xoşluğuyla yaşanıldı. Çərşənbə tonqalı Novruz üçündü; çərşənbə tonqalının ətrafında niyyətlər qoşalaşdı, vahidləşdi, dönməzləşdi: torpaqlarımız işğaldan azad edilsin! Bu, bir hərbi hissənin timsalında ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəlməsində olduqca əhəmiyyətlidir.

...Könlümdən çırtıltısını qələbə marşının sədası bildiyim tonqalların ətrafında əsgərlərin əhatəsində olmaq, "Qələbə marşı"nı onlarla birlikdə dinləmək keçir. Yazın nəfəsini hiss edə-edə, ağacların tumurcuq bərəkətli budaqlarını tərpədən yaz yelini sinəmə sıxa-sıxa o gözəlim marşa sarı yol gedirəm. Cücərən yaşıllığın içindən keçəcəm, Gün çeşt yerinə çata-çatda bulaqların zümzüməsinin səsinin ətəyindən yapışacam, Böyük Qələbənin yolları üstə müvəqqəti dayanacaqlarda - səngərlərdə döyüş növbətçiliyi aparanlarımızla döyüş öncəsi kəlmələşməyə tələsəcəm...

Novruz bayramıdı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Naxçıvan Qarnizonu Qoşunlarının növbəti ikitərəfli komanda-qərargah təlimi başa çatıb

*Komanda-qərargah təlimi yaranmış mürəkkəb əməliyyat şəraitində döyüşün və onun hərtərəfli təminatının təşkili üzrə idarəetmə orqanlarının uzlaşmış və operativ fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin gedişində qərargahlar tərəfindən birgə idarəetmə orqanlarının yaradılması, qoşunların döyüşün planlaşdırılması və aparılması zamanı praktiki olaraq idarə edilməsi kimi müxtəlif suallar işlənilib.

Ssenariyə uyğun olaraq bölmələrin sərhəd pozuntusunun qarşısının alınmasıyla praktiki fəaliyyətə başladıqları təlim, sərhəd pozucularının müxtəlif üsullarla aşkar edilərək zərərsizləşdirilməsi və təxliyəsi ilə davam edib.

Düşmənin kəşfiyyat-diversiya qruplarının dövlət və xüsusi əhəmiyyətli obyektlərdə törədə biləcəkləri diversiya fəaliyyətlərinin qarşısının alınması məqsədi ilə "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı qrupları həmin obyektləri mühafizəyə götürüb, təhlükəsizliyini təmin edib, Mülki Müdafiə Alayının təcrübəli heyəti obyektdə baş vermiş yanğını söndürüb.

Digər istiqamətdə diversiya fəaliyyətlərinin qarşısını almaq üçün bölmələr sudan, havadan və qurudan hərəkətə başlayaraq düşmənin kəşfiyyat-diversiya qruplarını yüksəkliyin ətəyinə doğru sıxışdıraraq məhv edib.

Yaranmış şəraitdən yararlanmağa çalışaraq, bölmələrimizin müdafiə dərinliyinə soxulmağa cəhd edən düşmənin yandan keçmə dəstələrinə əlverişli hədlərə çıxarılmış birləşmələrimizin döyüş düzülüşünün digər elementlərinin gücü ilə atəş zərbələri endirilib, motoatıcı və tank bölmələrinin aktiv manevri ilə məhv edilməsi başa çatdırılıb.

Motoatıcı, artilleriya, aviasiya, hava hücumundan müdafiə, rabitə, mühəndis birləşmə və hissələri ilə yanaşı, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Mülki Müdafiə Alayının və Muxtar Respublikanın digər güc strukturlarının bölmələrinin cəlb edilməsi ilə keçirilən Naxçıvan Qarnizonu Qoşunlarının ikitərəfli komanda-qərargah təliminə qarnizonun Təlim-Tədris Mərkəzində yekun vurulub.

Təlimin nəticələri idarəetmə orqanlarının, komandirlərin və qərargahların yüksək hazırlıq səviyyəsinə malik olduqlarını göstərib.

Təlim qarnizon qoşunlarının uzlaşmış fəaliyyətinin təmin edilməsi, komandir və qərargahların yaranmış mürəkkəb əməliyyat şəraitində düzgün qərar qəbul etmə bacarıqlarının təkmilləşdirilməsində də mühüm rol oynayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***18 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Aşağı Əskipara kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***19 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.




# NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib

*Bakıda Azərbaycan Respublikasının NATO ilə "Planlaşdırma və Analiz Prosesi (PAP) Tərəfdaşlıq Məqsədləri" sənədinin Müdafiə Nazirliyinə aid hissəsinin həyata keçirilməsi üzrə NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə müdafiə sahəsində aparılan islahatlar, NATO ilə əməkdaşlıq, PAP proqramı üzrə tərəfdaşlıq məqsədlərinin yerinə yetirilməsi, əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi istiqamətində uzunmüddətli perspektiv planlar, eləcə də qarşılıqlı fəaliyyətin artırılması məsələləri müzakirə olunub.

# Heydər Əliyev adına AAHM-də elmi konfrans keçirilib

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin təşkilatçılığı ilə 2019-cu ilin Elmi iş planına uyğun olaraq Kursant Hərbi Elmi Cəmiyyətinin növbəti konfransı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, konfransın əsas məqsədi elmi və elmi-tədqiqat işinə meyilli kursantların aşkar edilməsi, hərb elminin inkişafında onların rolunun artırılması və "Ən yaxşı məruzəçi"lərin respublika miqyaslı analoji tədbirlərdə iştirakının təmin edilməsi olub.

Konfransda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyəti ilə yanaşı, Daxili İşlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələrinin zabit və kursantları da iştirak ediblər.

Beş bölmə üzrə təşkil olunan konfransda ümumilikdə 75 kursant məruzə ilə çıxış edib.

Konfransın yekununda iştirakçılara sertifikatlar təqdim olunub.

AZƏRBAYCAN ORDUSU

# Hərbi hissələrdə "Açıq qapı" günü



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ictimai nəzarətin gücləndirilməsi, ordu və xalq birliyinin daha da möhkəmləndirilməsi, əsgər ailələri ilə aparılan işin səmərəliliyinin yüksəldilməsi məqsədilə hərbi qulluqçuların valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib. Novruz bayramı ərəfəsində Azərbaycan Ordusunun tabeçiliyində olan bütün hərbi hissələrdə keçirilən tədbirlərdə qonaqlar şəxsi heyət üçün yaradılan yaşayış, məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkiblər. "Açıq qapı" günündə hərbi hissələrin komandanlığının valideynlərlə təşkil olunan görüşlərində onları maraqlandıran məsələlərin müzakirəsi aparılıb, sualları cavablandırılıb. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Gəncə Qarnizonu Zabitlər Evinin, eləcə də digər incəsənət kollektivlərinin, tanınmış müğənnilərin iştirakı ilə təqdim edilən konsert proqramlarından sonra hərbçilər və qonaqlar üçün bayram süfrələri təşkil olunub.*

Azərbaycan xalqı üçün əziz, doğma və ən sevimli bayramlardan biri Novruz bayramıdır. Milli bayramımız olan Novruz gəlişi ilə evlərə, ailələrə şadlıq və sevinc gətirir. Anadan olandan hər bir azərbaycanlının qəlbində, ruhunda və fikrində yaşayan Novruz bayramı bütün insanları coşdurur, sevindirir və şənləndirir. İnsan nə qədər kədərlənsə də, bu bayramda özünü şən əhval-ruhiyyədə hiss edir.

"N" hərbi hissənin nəzarət-buraxılış məntəqəsində respublikamızın müxtəlif bölgələrindən gəlmiş valideynlərin, ictimaiyyət nümayəndələrinin gözlərində sevinc və fərəh hissi duyulurdu. Öz övladları ilə görüşmək, onların xidmət etdiyi hərbi hissə və zabit heyəti ilə yaxından tanış olmaq valideynlərin sevincini ikiqat artırıb.

Hərbi hissə və şəxsi heyət üçün yaradılan şəraitlə tanış olan valideynlərdən əsgər atası Vüqar Məmmədov bildirdi ki, oğlu artıq üç aydır bu hərbi hissədə xidmət edir. "Övladımın xidmət dövrü əsasən qış aylarına təsadüf etdiyindən bir valideyn kimi məni əsas maraqlandıran məsələ əsgərlərin istilik təminatıdır. Övladımı ziyarət etmək üçün artıq bir neçə dəfə bu hərbi hissədə olmuşam. Yaradılan şərait, əsgərlərə göstərilən diqqət və qayğı bir valideyn kimi məni həm təəccübləndirir, həm də kövrəldir. Bütün əsgər yataqxanaları istilik sistemi ilə təmin olunmaqla yanaşı, əsgərlərin qış geyimləri də yüksək səviyyədə təchiz olunub. Məni təəccübləndirən əsas məsələ odur ki, hərbi hissənin zabit və gizirlərinin nəzarəti və bütün əsgər yataqxanalarının isti su ilə təminatı hesabına şəxsi heyət soyuq su içməyə belə imkan tapmır. Bu onların qış aylarında xəstələnməsinin qarşısını alır. Yaradılan şəraitdən, göstərilən diqqət və qayğıdan heç bir valideynin narazılığı ola bilməz. Fürsətdən istifadə edib, Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə yaradılan şəraitə görə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm".

- Qardaşım oğlu bu gün əsgər kimi dövlət qarşısında öz borcunu yerinə yetirməsinə baxmayaraq, gələcəyin hərbi qulluqçusu olmaq arzusundadır, - deyə Samir Orucov söhbətə başladı. - O, artıq Ümummilli Liderimizin qeyd etdiyi kimi şərəfli yolun yolçusudur. Bu yolda ona uğurlar arzulayıram. Eyni zamanda arzu edirəm ki, Azərbaycan Ordusunun Qələbə sevincini yaşayanlardan olsun.

Həmsöhbətimiz Azərbaycan Ordusunun tarixi qələbəsinin çox uzaqda olmadığını da qeyd etdi. "Son illər ordumuzun inkişafı, tarixi aprel qələbəsi və Günnüt zəfəri də bunu deməyə əsas verir. Dağlıq Qarabağ problemi beynəlxalq müstəvidə öz həllini tapmasa, inanırıq ki, tezliklə bu ordu xalqımızın arzusunun reallaşdırılmasının təminatçısına çevriləcək".

Hərbi hissənin şəxsi heyəti Novruz bayramının atributları ilə bəzədilmiş sıra meydanında düzülüb. Bayram əhval-ruhiyyəsi sıra meydanında deyil, həm də zabitlərin, gizirlərin çavuşların, əsgərlərin və övladlarına tezliklə qovuşmaq istəyən valideynlərin də gözlərindən oxunur.

General-mayor Hikmət Həsənov şəxsi heyəti salamlayaraq onları xalqımızın əziz bayramı olan Novruz bayramı münasibəti ilə təbrik etdi. Zabit çıxışı zamanı ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə xalqımızın öz mənəvi dəyərlərinə sahib çıxdığını və Novruz bayramının ümumxalq bayramına çevrildiyini qeyd etdi: "Xalqımızın mənəvi dəyərləri möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ən yüksək səviyyədə qorunur və davam etdirilir. Ali Baş Komandanın apardığı məqsədyönlü siyasət, müstəqil respublikamızın iqtisadi potensialının, müdafiə qüdrətinin artması, əhalinin maddi rifahının gündən-günə yaxşılaşması deməyə əsas verir ki, Silahlı Qüvvələrimiz tezliklə torpaqlarımızı işğaldan azad edəcək. İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, nizamnamələrinə uyğun olaraq xidməti borcunuzu layiqincə yerinə yetirəcək, döyüş hazırlığı və mənəvi hurun yüksəldilməsində səylərinizi daha da artıracaq, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, işğal olunmuş torpaqlarımızın azad edilməsi naminə döyüşə hazır olacaqsınız".



Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qeyd etdi ki, Novruz bayramı ulu əcdadlarımızdan bizə yadigar qalıb. "Bu bayram bizələrə mənən yüngülləşməyi, saflaşmağı və nikbinliyi aşılayır. Ancaq xalqımızın ümumi bir arzusu var - düşmən tapdağı altında inləyən torpaqlarımıza qayıtmaq. Elə bir azərbaycanlı yoxdur ki, harada yaşamasından asılı olmayaraq gözünün önünə Kəlbəcər dağlarını, Şuşa meşələrini, Laçın yaylaqlarını, Ağdam çöllərini gətirməsin. Ömründə bu yerləri görməyən adamların da oralar üçün burnunun ucu göynəyir, desəm, yanılmaram. Vətən birdir, ayrılmazdır, bölünməzdir. Deyirlər Novruz istəkləri çin olur. Ən böyük istəyimiz yuvasından, elindən perik düşmüş qardaş və bacılarımızı öz ocaqlarının başında görməkdir. Gün o gün olsun ki, səngərlərdə sinəsini sipər edən, Vətən keşiyində dayanan igid oğullarımız Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etsin və Qələbə ilə Vətənə, doğma yurdlarına qayıtsınlar. Sizlərə Azərbaycan Respublikasının müstəqilliyi və torpaqlarımızın azad edilməsi yolunda müvəffəqiyyətlər arzulayıram".



Rəsmi hissədən sonra Novruz bayramının əsas personajları olan Kosa və Keçəlin məzəli çıxışları məclisə xüsusi rəng qatdı. Kəndirbazlar xüsusi nömrə ilə şəxsi heyət qarşısında çıxış etdi, kəndir dartma yarışı keçirildi, digər bir tərəfdə isə xoruz döyüşdürüldü. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer aldı.

Tədbir yerli incəsənət nümayəndələrinin maraqlı konsert proqramı ilə başa çatdı. Şəxsi heyət, valideynlər və ictimaiyyət nümayəndələri bayram tədbirindən xoş təəssüratlarla ayrıldılar.

* * *

Novruz bayramı münasibəti ilə keçirilən "Açıq qapı" günündə iştirak edəcək əsgər valideynləri, veteranlar və ictimaiyyət nümayəndələri səhər saatlarından etibarən hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin önünə toplaşmışdılar. Hər kəs vaxtın tamam olmasını səbirsizliklə gözləyirdi. Qeyd edək ki, Ali Baş Komandanın göstərişi və Müdafiə nazirinin təşəbbüsü ilə dörd ildir ki, keçirilən "Açıq qapı" günü tədbirləri ordu-cəmiyyət əlaqələrinin monolit birliyinin təcəssümünə çevrilib. İlk dəfə 25 oktyabr 2015-ci ildə keçirilən "Açıq qapı" günü tədbirlərinin ənənəsi getdikcə daha da möhkəmlənib.

Hərbi hissənin ərazisində salınmış geniş yaşıllıq zolağı, təmizlik və səliqə-sahman göz oxşayır. Torpağa sancılan göy, qırmızı, yaşıl rəngli bayraqlar əraziyə möhtəşəmlik gətirir. Bir sözlə, hərbi hissənin ərazisində gördüyümüz mənzərə hər kəsin qəlbini fərəh hissi ilə doldurur. Bayram tədbiri hərbi hissənin sıra meydanında başladı. Polkovnik Elşad Əbilov qonaqları salamlayaraq xalqımızın ən əziz bayramlarından biri olan Novruz ənənələrinin tarixindən danışdı. Sovet dönəmində yasaq edilən Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsinin ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğuladı. Xalqımıza bol-bol sevinc, qələbə dolu günlər arzuladı.

**(Ardı 7-ci səhifədə)**

# “Novruz bayramınız mübarək!”

*Azərbaycan xalqının zəngin milli dəyərlər sistemini və adət-ənənələrini yaşadan bayramlar sırasında Novruz bayramı xüsusi yer tutur. Xalqımızın mənəvi dünyası və həyata baxışı Novruz mərasimlərində dolğun əks olunub, bu bayram milli varlığın rəmzinə çevrilib. Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz bayramı milli dəyərlərimizin əbədiyaşarlıq rəmzidir. Artıq bu gün Azərbaycanın güclü ordusu, sağlam cəmiyyəti, gözəl rifahı olan milləti və ən əsası bütün dünyada böyük nüfuzu var. Müstəqilliyimizin qazanılması, nüfuzun əldə edilməsi heç də asan başa gəlməyib. Bu uğurların əldə edilməsində Azərbaycan Ordusunun, onun şəxsi heyətinin misilsiz xidmətləri danılmazdır. Baharın gəlişini, təbiətin oyanışını, həyatın canlanmasını müjdələyən Novruz bayramı hərbçilərimizin də ürəyini coşdurub.*





**Leytenant Orxan Cəlilov:**

- Vətənə xidmət hər bir kəsin borcudur. Bizim borcumuz isə tabeliyimizdə olan şəxsi heyətlə nizamnamə çərçivəsində hərəkət etmək, onların bir hərbçi kimi formalaşmasında yaxından iştirak etməkdi. Hər zaman yenilənən şəxsi heyətə hərbi texnikanı öyrətməyi, vətənpərvərlik hissini aşılamağı özümüzə borc bilirik. İstəyimiz odur ki, onlar Vətənə layiqli övlad olsun, Vətəni qorusunlar. Bu gün Azərbaycanın ən ağrılı problemi Dağlıq Qarabağdır, hələ də işğal altında qalan torpaqlarımızdır. Lakin biz belə möhtəşəm bayram tonqallarının işğal altında qalan dədə-baba torpaqlarımızda da alovlandırılacağına qətiyyətlə inanırıq. Biz bu günün uzaqda olmadığını bilirik. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və bütün cəmiyyətin diqqəti bu məqsədə yönəlibdir. Cəmiyyətdə indi müşahidə olunan həmrəylik, səfərbərlik, iqtisadi və hərbi gücümüz bizim qələbəmizi şərtləndirən amillərdən biridir. Biz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik."

Xalqımızı və Azərbaycan Ordusunun bütün şəxsi heyətini bu gözəl bayram münasibəti ilə təbrik edir, Prezidentimizin rəhbərliyi ilə günbəgün inkişaf edən ölkəmizdə hər birinə firavan həyat arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Pərviz Alıyev:**

- Bu gün ordumuzun döyüş ruhu, hazırlığı düşmənə cavab verməyə, ona qalib gəlməyə yetərlidir. Əsgərlərimizin mənəvi-psixoloji durumu, ruh yüksəkliyi, vətənpərvərliyi də ən yüksək səviyyədədir. Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır, qadirdir və bunun üçün böyük imkanlara malikdir.

Təbii ki, bu inama əsas yaradan Azərbaycanın iqtisadi tərəqqisi ilə müdafiə qüdrətinin artırılması istiqamətində atılan biri-birindən əhəmiyyətli addımlardır. Hərbi paradlarda nümayiş etdirilən ən müasir hərbi texnikalar, döyüş silahları bir daha belə əminlik yaratdı ki, bu ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu hər bir azərbaycanlı üçün qürurludur.

Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən Novruz bayramı özü ilə xoş əhval-ruhiyyə, yaxınlarla isti təmas, bir də çox sevdiklərimizə təbriklər gətirir. Yüksək diqqət və qayğı ilə əhatə olunduğum, Vətənə xidmət borcumu şərəflə yerinə yetirmək üçün hər cür şəraitin yaradıldığı bir ordunun hərbi qulluqçusuyam. Bu bayram günündə xalqımızı səmimi qəlbdən təbrik edirəm, şəxsi heyətimizə isə tezliklə tarixi torpaqlarımızı işğaldan azad edərək, xalqımıza sevinc bəxş etməyi arzulayıram”.

**Əsgər Ruslan Əkbərli:**

- Həmvətənlərimizi, hərbi qulluqçularımızı bu bayram münasibəti ilə səmimi qəlbdən təbrik edir, özümüz, ailəmiz, millətimiz üçün etmək istəkdiklərimizi yaxın zamanda



həyata keçirməyi arzulayıram. Novruz bayramı tarixi bayram olaraq bu günümüzə qədər qorunub saxlanmışdır. Xalqımız Azərbaycanımızda xüsusilə qeyd olunan Baharın gəlişi, torpağın oyanışı bayramı olan Novruz bayramını bu gün heç də tam könül açıqlığı ilə keçirə bilmir. Buna səbəb torpaqlarımızın işğal altında olmasıdır. Qarşıda çətin, şərəfli, məsuliyyətli yolumuz var. Bu yolda şəxsi heyətimi-



zə Azərbaycanın ərazi bütövlüyünü təmin etməyi arzu edirəm.

Bir daha Novruz bayramı münasibəti ilə xalqımızı təbrik edirəm. Novruzun qədəmləri xalqımıza düşərli olsun. Torpaqlarımız tezliklə işğaldan azad edilsin. Müqəddəs üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Ağdamda, Füzulidə, Zəngilanda... dalğalansın. Hər bir evə xoşbəxtlik, bol ruzi, sağlam can və ən əsası Böyük Qələbəni qeyd etməyi arzulayıram.

**Əsgər Nəriman Məlikzadə:**

- Günbəgün güclənən Azərbaycan Ordusu Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq öz müqəddəs missiyasını uğurla yerinə yetirir. Düşmənlə təmas xəttində hərbi xidmət keçmək daha məsuliyyətli və şərəflidir. Dövlətimiz çətin təbii şəraitdə torpaqlarımızın keşiyində dayanan əsgər və zabitlərimizə həmişə diqqət göstərir, onların xidmət şəraitinin daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirir. Biz öz mövqelərimizdə ayıq-sayıq dayanmışıq. Müharibə başa çatmayıb, bu müharibə torpaqlarımız işğaldan azad edildəndən sonra başa çatacaq. Onda bütün bayramlarımız, o cümlədən Novruz bayramı da könül xoşluğu ilə qeyd ediləcək.

Xalqımızı Novruz bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edir, hər birinə bahar əhval-ruhiyyəsi, cansağlığı və ailə səadəti arzulayıram.

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyünün qorunması namine canlarından keçmiş Azərbaycan övladlarının da xatirəsi bu əziz günlərdə bir daha ehtiramla yad olunur. Azərbaycanın müstəqil ölkə olaraq qazandığı zəfərlər şəhidlərimizin ruhunu şad edəcəkdir.

**Gizir Tural Nəzərəliyev:**

- Hələ illər öncə Vətən andını qəbul edib gənc əsgər kimi hərbi vərdişlərə dərindən yiyələnirdim. Atalarımızın belə bir deyimi var: “Niyyətin hara, mənzilin ora.” Komandirlərimin verdiyi tapşırıqları vaxtında yerinə yetirir, təlimlərdə silah və texnikaların sirlərini mənimsəyirdim. Təlim çalışmalarında yüksək nəticələr əldə etmək üçün komandirlərimizin bizə aşıladıqları bilikləri öyrəndim, hərbçi oldum. Ən böyük arzum işğalda olan torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmək və qələbə bayrağını uca zirvələrdə dalğalandırmaqdır. Qoy, bu Novruz tonqalları işğal altında olan torpaqlarımızda alovlansın.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əvəz Yusifov:**



- Hazırlıqlı döyüşçü Vətənin müdafiəsində mərdliklə dayanır. Onu nə boran, nə də qış qorxutmur. Hər an döyüşə hazırdır. Komandanlığın mənə etibar etdiyi vəzifənin öhdəsindən bacarıqla gəlirəm. Tabeliyimdə olan əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasına çalışıram. Biz ilk növbədə peşəkarlığımızı artırmalıyıq. Bunu bizdən Vətən, torpaq qarşısındakı borcumuz tələb edir. Ermənistan silahlı qüvvələrinin işğalına məruz qalan torpaqlarımızı azad edəcəyik. Qaçqın və köçkün soydaşlarımız xalqımızın müqəddəs bayramlarını öz ata-baba yurdlarında qarşılayacaqlar.

**Əsgər Ülvi Vəliyev:**

- Müşahidə məntəqəsində düşmənin hər tərpənişini gözdən qoymuruq. Səngərdə xidmət aparmaq nə qədər çətindirsə, bir o qədər də şərəflidir. Vətən torpaqlarını yağılardan qorumaq bizim borcumuzdur. Hərbi xidmətimi başa vurduqdan sonra orduda qalıb hərbi qulluğumu davam etdirəcəyəm. Qoy bu Novruz xalqımıza xeyir-bərəkət gətirsin. Novruz tonqallarımız Qarabağımızda alovlansın.

**Əsgər Murad Hüseynov:**

- Hərbi mühit insanı çox dəyişdirir. Burada elə bil həyat dərsi öyrənirsən. Əsgərliyin, həqiqətən, kişilik məktəbi olduğuna tam inanmışam. 2016-cı ilin aprel döyüşlərində mən məktəbli idim. O döyüşlərdə iştirak etmək istəsəm də, mənə icazə vermədilər. Ancaq bir vətəndaş kimi həmin döyüşlər mənim də sevincimi kükrətdi. Hərbi xidmətə bu sevinclə gəldim. Bir niyyətlə xidmət edirəm: torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedəcək döyüşlərdə iştirak etmək, qalib əsgərlərin sırasında olmaq. Mən də inanıram ki, hər bir Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrinə hazırdır. Biz qalib gələcəyik. Bu inam həm də bizim Novruz bayramında niyyətlərimizi müəyyənləşdirir.

Hərbi xidmət dövründə yaranan dostluq, yoldaşlıq unudulmur. Günlər ötdükcə bir ailənin üzvü kimi bir-birimizə daha da sıx bağlanırıq. Komandirlərimizin səmimi münasibəti bizi orduda hərbi xidmətimizi uğurla davam etdirməyə ruhlandırır. Əsgəri adımızla fəxr edirik. Bu Novruz bayramı bahar təravətli günlər, sevinc gətirsin. Ən böyük arzum odur ki, tezliklə xalqımızı yenilməz Azərbaycan Ordusunun Qələbə xəbərləri ilə sevindirək.

**"Azərbaycan Ordusu"**

# Çanaqqala zəfərinin ildönümü qeyd olunub



Türk xalqının müttəfiq dövlətlərin "Yenilməz armada"sına qarşı ölüm-dirim savaşında qazandığı Çanaqqala zəfərinin 104-cü ildönümü və şəhidləri anma günü münasibətilə Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət olunub.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbirdə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun əməkdaşları, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev, Naxçıvan şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli, zabitlər, müxtəlif təşkilatların əməkdaşları və sadə vətəndaşlar iştirak ediblər.

Əvvəlcə 1918-1920-ci illərdə Naxçıvanın erməni daşnakları tərəfindən işğalının qarşısının alınmasında şəhidlik zirvəsinə ucalan qəhrəman türk əsgərlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin dövlət himnləri səsləndirilib, abidə önünə əklil qoyulub.

Mərasimdə Türkiyənin Naxçıvandakı Baş konsulu Mehmet Emin Kiraz çıxış edərək bildirib ki, şəhidlərimizin sarsılmaz Vətən sevgisi ən böyük qürurumuz, zənginliyimiz və gücümüzdür. O vurğulayıb ki, Vətəni qorumaq üçün ən çətin şəraitdə çəkinmədən canlarını fəda edən əziz şəhidlərimiz qəlbimizdə əbədi yaşayacaq.



Türkiyə Silahlı Qüvvələrinin hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi, polkovnik Yusif Gündoğdu çıxışında qeyd edib ki, Birinci Dünya müharibəsi zamanı - 1915-1916-cı illərdə Osmanlı dövləti ilə Antanta İttifaqı arasında dəniz və quru döyüşləri olub. Osmanlı ordusu ittifaq dövlətləri ilə müqayisədə sayının az, təchizat baxımından isə zəif olmasına baxmayaraq, düşmənin bütün hücumlarını dəf etməyi bacarıb. Türk ordusu bu ağır döyüşdə 253 min şəhid verib. Döyüşlərdə 3 minədək azərbaycanlı könüllü qəhrəmancasına vuruşaraq əbədiyyətə qovuşub. Çanaqqala zəfəri məhv olmaq təhlükəsindən olan bir ölkənin şanlı qələbəsidir. Bu zəfər türk millətinin gücünün və sarsılmazlığının ifadəsidir.

Çıxışlardan sonra tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər.

# Hərbi qulluqçunun 12 ilin həsrətindən sonra üçəm körpəsi dünyaya gəlib

*Bu il Novruz bayramı Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ömər Ələkbərovun ailəsinə də unudulmaz sevinc hissləri bəxş edib.*

AZƏRTAC xəbər verir ki, 12 illik həsrətdən sonra onun ailəsində üçəm dünyaya gəlib. Biri qız, ikisi oğlan olan körpələrə erməni vəhşiliyinin qurbanı məsum Zəhranın və Milli qəhrəmanlarımız Mübarizlə Çingizin adları verilib. Körpələr sağlam və gümrahdırlar.

Ömər Ələkbərov Gəncədə anadan olub. Müddətli həqiqi hərbi xidmətini Naxçıvan Muxtar Respublikasında, Ermənistanla sərhəddə ön səngərdə başa vurduqdan sonra həyatını həmişəlik olaraq ordu ilə bağlayıb. Beş ildən çoxdur ki, Vətənə sədaqətlə xidmət edir. Nümunəvi davranışı, nizam-intizamı və döyüş qabiliyyəti, peşəkarlığı ilə silahdaşlarının və komandirlərinin rəğbətini qazanıb. Cəbhə bölgəsində xidmətlərinə görə dəfələrlə mükafatlandırılıb. Körpələrinin dünyaya gəlməsi 13 yaşında itirdiyi ata-anasının yoxluğunu qismən də olsa, ona unutdurub.

Müdafiə Nazirliyinin rəhbərliyi, Ö.Ələkbərovun xidmət etdiyi hərbi birliyin komandanlığı ailənin bütün problemlərinin həllini öz üzərinə götürüb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə bir qrup əməkdaş



martın 18-də körpələri K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutundan təntənəli mərasimlə çıxarıblar.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyi rəhbərliyinin, eləcə də bütün hərbi qulluqçuların adından ailəyə gözaydınlığı verib, tibb işçilərinə minnətdarlığını bildirib. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının milli geyimli üzvləri şirinlik paylayıb, şəhərində üçotaqlı xidməti mənzilin açarları ailəyə təqdim edilib.

Baş həkim, tibb üzrə fəlsəfə doktoru, dosent Səadət Ələsgərova və tibb elmləri doktoru, həkim Ədilə Hacıyeva Müdafiə Nazirliyinin bu təşəbbüsünü yüksək dəyərləndirib, körpələrin valideynlərini bir daha təbrik edib. Onlar Azərbaycan əsgərlərinə səmimi salamlarını çatdıraraq Qarabağa zəfər yürüşündə qəhrəman döyüşçülərimizin sıralarında olacaqlarını vurğulayıblar.

Kiçik çavuş Ömər Ələkbərov göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirərək deyib: "Mən Azərbaycan Ordusunun əsgəri olmağımla fəxr edirəm. Arxamızda böyük bir xalqın və cənab İlham Əliyev kimi müdrik Prezidentin, qətiyyətli sərkərdənin durmasından qürur duyuram. Ölkəmizin iqtisadi potensialının dinamik inkişafı nəticəsində ordumuzun maddi-texniki bazası daha da möhkəmləndikcə bizim - hərbi qulluqçuların sosial müdafiəmiz, xidmət və mənzil-məişət şəraitimiz, ailələrimizə göstərilən qayğı da bir o qədər yüksəlir. Mənə və ailəmə bu gün göstərilən qayğı ümumiyyətlə, hər bir hərbi qulluqçuya göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir. Bircə o qalır ki, göstərilən etimadı nümunəvi xidmətlərimizlə doğruldaq. Ali Baş Komandanımızı və Müdafiə Nazirliyinin rəhbərliyini əmin edirəm ki, Vətən qarşısında əsgəri borcumu bundan sonra da şərəflə yerinə yetirəcək və ümidləri əməli fəaliyyətimlə doğruldacağam".

Üçəmlər və valideynləri musiqi sədaları altında Gəncəyə - yeni mənzilə yola salınıblar.

# Elimizin bayramı

Xalqı xalq edən onun milli dəyərləri və adət-ənənələridir. Xalq daim öz folklorunu qoruyur, yaşadır, gələcək nəsillərə ötürür. Unudulmayan adətlərimizdən biri də Zərdüştlüklə bağlı olan Novruz bayramıdır. İslama qədərki Azərbaycanda sitayiş edilib və bu inanc yazın gəlişində Novruz adıyla bayram edilib.

Bu bayram öz müsbət cəhətləri ilə daha çox diqqət çəkir. Küsülülər barışır, hər kəs bir araya gələrək bayram hazırlıqlarına başlayır, evlər təmizlənir, köhnə ilin yükü atılır və o öz yerini yenisinə verir.

Novruz bayramı şəhərlərdə və bölgələrdə böyük izdihamla qeyd edilir. Bu bayramda dövlət başçısı şəhərdə əhali arasında olur ki, bu da bayramın ovqatını yüksəldir.

Novruz bayramı hərbi hissələrdə də qeyd olunur, əsgərlərimizə ruh yüksəkliyi aşılanır.

Xalqımız bu bayramı Sovet dövründə də böyük coşqu və sevinclə qarşılayardı. Biz indi müstəqilik. Milli dəyərlərimizi qoruyur və yaşadırıq.

Novruz - bolluq, bərəkət, birlik rəmzidir. Biz bu bayramı Xocalıda, Zəngilanda, Kəlbəcərdə və işğal olunmuş digər ərazilərimizdə də qeyd edəcəyik. Novruz bayramında da torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən Vətən oğullarının xatirəsini ehtiramla yad edəcəyik.

Novruz bizə bol bərəkət, sevinc və qələbə sevinci gətirsin.

Bayramınız mübarək, Azərbaycan əsgəri!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

# Hərbi hissələrdə "Açıq qapı" günü

(Əvvəli 4-cü səhifədə)

General-mayor Mayis Bərxudarov Novruzun - bahar bayramının gəlişi münasibəti ilə hərbi hissənin şəxsi heyətini və tədbir iştirakçılarını, əsgər valideynlərini, veteranları ürəkdən təbrik etdi, müasir ordumuzun banisi ulu öndər Heydər Əliyevin başladığı hərbi quruculuq siyasətinin bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, məhz onun diqqət və qayğısı nəticəsində gündən-günə qüdrətlənən ordumuzun sayəsində qazandığımız aprel döyüşlərindən, Naxçıvanda düşmən işğalından azad edilən hektarlarla ərazilərimizdən - Günnüt əməliyyatından danışdı. Zabit çıxışına dövlət başçısı İlham Əliyevin səsləndirdiyi "Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Bunu etmək üçün bizim bütün imkanlarımız - Azərbaycan xalqının birliyi, səfərbərliyi, ölkəmizin güclü ordusu, Azərbaycan rəhbərliyinin və xalqımızın iradəsi vardır" - fikirləriylə davam edərək əminliklə vurğuladı ki, ordumuzun şəxsi heyəti Ali Baş Komandanın "İrəli" əmrinə hər an hazırdır.

Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov ordumuzun əsgər və zabitlərini, bütün tədbir iştirakçılarını Novruz bayramı münasibəti ilə təbrik etdi. Əsgərlərimizə torpaqlarımızın mənfur düşmənlərimizdən azad edilməsi uğrunda döyüşlərə hər an hazır olmaq üçün hərbi vərdişlərini durmadan artırmalarını, silah və texnikaların sirlərinə dərindən yiyələnmələrini arzuladı.





Hərbi hissənin yaranma tarixindən ziyarətçilərə ətraflı məlumatlar çatdırıldı. Qonaqlar, eyni zamanda hərbi hissənin gündəlik fəaliyyəti, ərazidə yerləşən obyektlərlə, inzibati, ideoloji otaqlarla, şəxsi heyətin məişət şəraiti və təminatı ilə də yaxından tanış oldular. Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu hərbi hissə komandanlığı tərəfindən mükafatlandırıldı.

"Açıq qapı" gününün rəsmi hissəsi başa çatdıqdan sonra qonaqlar Gəncə Zabitlər Evinin, Füzuli Dram Teatrının, Laçın rayon Mədəniyyət şöbəsinin yaradıcı kollektivlərinin hazırladığı rəngarəng bayram konsertini böyük maraqla izlədilər. Novruz bayramının qəhrəmanları Bahar qızın, Kosa ilə Keçəlin, ulu Dədə Qorqudun çıxışları tədbir iştirakçılarında xoş ovqat yaratdı. Novruz ənənələri yerinə yetirildi. Əsgər və zabitlərlə ictimaiyyət nümayəndələri yumurta döyüşdürdülər. Tonqalın alovlandırılması üçün Dədə Qorqud meydana daxil oldu. Alovlanan tonqal ətrafında hər kəs birliyin, bütövlüyün rəmzi olan yallı rəqsini ifa etdi.

Sonda ziyarətçilər və ictimaiyyət nümayəndələri əsgər yeməkxanasında təşkil olunan bayram naharına dəvət edildilər.

* * *

Bayram münasibəti ilə şəxsi heyəti, valideynləri təbrik edən polkovnik İntiqam Mirzəyev Azərbaycan Ordusunun son illərdə qazandığı nailiyyətlər barəsində məlumat verdi. "Ali Baş Komandanın rəhbərliyi ilə günbəgün güclənən Azərbaycan Ordusu Vətənimizin keşiyində ayıq-sayıq dayanaraq öz müqəddəs missiyasını uğurla yerinə yetirir. Dövlətimiz tərəfindən torpaqlarımızın keşiyində dayanan əsgər və zabitlərimizə həmişə diqqət və qayğı göstərilir, onların xidmət şəraitinin daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu gün şəxsi heyətin öz üzərinə düşəcək vəzifələri yüksək səviyyədə yerinə yetirmələri üçün hər cür şərait mövcuddur. Texnika, silah-sursatla yanaşı, sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi də ordumuzun rəhbərliyinin daim diqqət mərkəzindədir. Müasir döyüş texnikalarının silahlanmaya qəbul edilməsi hərbi hissələrimizin atəş gücünü və manevr qabiliyyətini artırır. Yeni inşa edilən hərbi şəhərciklər ordumuzun dinamik inkişafını əyani göstəricisinə çevrilir. Rahat əsgər yataqxanaları, məişət və istirahət otaqları, yeməkxana, idman meydançası, zəruri idman inventarları ilə tanışlıq zamanı bir daha söylədiklərimə əmin olacaqsınız. Şəxsi heyətin döyüş ruhu və mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. Çünki bütün işlər vahid komandanlıq və müəyyən olunmuş plan əsasında həyata keçirilir. Əsgərlərimiz sırf döyüş hazırlığı məsələlərinin həllində tam iştirak etmək məqsədilə, əlavə funksiyalardan - müxtəlif təsərrüfat, mühafizə və qulluqetmə tapşırıqlarından mərhələlərlə azad edilir. Bir sıra xidmət, qulluqetmə vəzifələrinin icrasına mülki şəxslərin cəlb olunması həyata keçirilir. Hərbi qulluqçularımızdan yalnız nümunəvi xidmət etmək, hərb elminin sirlərinə dərindən yiyələnmək, mürəkkəb döyüş texnikasını mükəmməl səviyyədə mənimsəmək tələb olunur. Yaradılan şərait şəxsi heyətdə ruh yüksəkliyi yaratmaqla yanaşı, xalqımız arasında da qələbə əzmi formalaşdırır. Müstəqil Azərbaycanın inkişafı, ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin möhkəmliyi gücümüzə güc qatır. Ordumuzun son vaxtlardakı uğurları, Azərbaycan əsgərinin döyüş və vətənpərvərlik ruhu, düşmənin təxribat xarakterli hərəkətlərinə vaxtında layiqli cavab verilməsi hər bir zabiti daha böyük qələbələr qazanılmasına ruhlandırır."

Gəncə Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Hüseyn Bəxtiyarlı Vətənin müdafiəsində igidlik və mətinliklə dayanan bütün hərbi qulluqçuları təbrik edərək, onlara çətin və şərəfli işlərində uğurlar arzuladı, tarixi keçmişimizə diqqət çəkdi. Qeyd etdi ki, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı müstəsna əhəmiyyətə malikdir. "Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxla-



qi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapıb. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləyiblər. Novruz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə, gələcəyə inamımızı azalmağa qoymayıb. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynayıb. Novruzun rəsmi bayram statusu alması və ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir." Şəxsi heyətə xidmətdə uğurlar arzulayan natiq tezliklə Novruz tonqallarının işğaldan azad edilmiş torpaqlarımızda çatılmasını dilədi.

Çıxışlardan sonra bayram tonqalı yandırıldı, konsert proqramı təşkil olundu. Bayram şənliyi Bahar qızının, Kosa və Keçəlin meydana daxil olması ilə daha da canlandı. Novruz bayramının simvolu sayılan personajlar öz oyunlarını nümayiş etdirdi, milli adət-ənənələrimizi əks etdirən ayin və mərasimləri canlandırdılar. Şən, duzlu, məzəli zarafatları əsgərlərimizdə və qonaqlarda xoş əhval-ruhiyyə yaratdı.

Əsgər valideynlərinin də fikirlərini öyrənmək qərarına gəldik.

"Hərbi hissədə gördüyüm şərait, səliqə-sahman, nizam-intizam ürəyimi açdı. İstər yaradılan məişət şəraiti, istərsə də qida ilə təminat insanı qeyri-ixtiyari məmnun salır. Bu gün düşüncələrimin əyani sübutu ilə qarşılaşdım. Yaradılan bu şərait cənab Prezidentimizin orduya olan diqqətinin təcəssümüdür. Mən əminəm ki, qısa müddətdə ordumuz şanlı səhifələr yazacaq. Torpaqlarımızı işğaldan azad etmək mənim ən böyük arzumdur", - deyən Lənkəran sakini, əsgər atası Namiq Canıyev bir daha komandanlığa minnətdarlığını bildirdi.

Bərdə şəhərindən gələn əsgər nənəsi Sayalı Rəhimova dedi: "Bir nənə üçün ən böyük zinət nədir? Təbii ki, nəvəsi. Bu gün xoşbəxtəm ki, əsgər nənəsiyəm. Nəvəmin Vətənin keşiyində dayanması mənim üçün qürurdur. Nənə ürəyi! - hər addımda nigaran qalırsan nəvəndən. Mübaliğəyə varmadan deyə bilərəm ki, yaradılan bu şərait məni tam razı saldı. Şükürlər olsun ki, gözüm arxada qalmadı. Ordumuza göstərdiyi yüksək diqqət və qayğıya, hərbçilərimiz üçün yaradılan şəraitə görə ölkə başçısına minnətdarlığımı bildirirəm".

Əsgər Elməddin Hacıyevin anası Qəbələ rayonundan gələn Fəridə Hacıyeva da oxşar fikirdədi: "Hərbi hissədə hər cür şərait yaradılıb. Göz qamaşdıran əsgər yataqxanaları, şərait və təminat içimdə bir əminlik yaradır. Əsgər balalarımıza yaratdığı bu şəraitə, bu yəqinliyi bizə verdiyinə görə Prezidentimizə təşəkkürümü bildirirəm".

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## <u>Mövzu:</u> 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım haqqında əldə olan tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etməli, eləcə də əvvəlki dərslərdə ermənilərin separatçı siyasəti haqqında öyrənilənləri dinləyicilərə bir daha xatırlatmalı və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti.**

**2. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

**3. Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoymalıdır.**

*Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti*

Azərbaycanlıların soyqırımı erməni faşizminin xalqımızın taleyinə həkk etdiyi qanlı salnamə, bütün türk dünyası və bəşəriyyət üçün tarixi ibrət dərsidir.

Türklərə və azərbaycanlılara qarşı ermənilərin mütəşəkkil şəkildə misli görünməmiş düşmənçilik siyasəti aparmasının və bunu bir millətin digər millət tərəfindən fiziki cəhətdən məhv edilməsi məqsədini daşıyan milli ideologiyaya və böyük fəaliyyət proqramına çevirməsinin dünya tarixində analoqu yoxdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı da uzun müddət tarixin açılmamış səhifələrindən biri olmuşdur.

Xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrinə siyasi qiymət vermək məqsədilə ümummilli lider Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı imzaladı. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırımı günü kimi tarixə yazıldı. Bu mühüm sənəddə Azərbaycan XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların tariximizdə ilk dəfə olaraq rəsmən adı çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış düşmənçilik siyasətinin kökləri açılır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarixi və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görən ant-Azərbaycan qüvvələrinin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

*Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri*

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının həmin milli faciəsinin davamı kimi onun torpaqlarının zəbt olunmasına başlanıldı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək, 10 minlərlə erməninin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Əhalinin fiziki cəhətdən məhv edilməsi isə Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. XX əsrin əvvəllərində "Daşnaksütyun" və "Hnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik kütlələri qatı millətçi ideyalar ətrafında birləşdirməsindən sonra bu proses daha da sürətləndi.

“Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan ermənilər 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

Erməni terrorçu-quldur dəstələri Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtula bilən on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qalmışdır.

Birinci Dünya müharibəsi zamanı (1914-1918) zəifləyən Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz ideyalarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən "əksinqilabçı ünsürlərlə mübarizə" adı altında Stepan Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası tərəfindən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanıldı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Ermənilər evlərə od vurur, insanları diri-diri yandırır, milli memarlıq abidələrini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdırdılar.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışlar.

Yalnız Bakıda 18 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdir. Qarabağın dağlıq hissəsində 750-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. İrəvan quberniyasında 211, Qars vilayətində 22 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış və talan edilmişdir.

İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdiyi vəhşiliklər və daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1920-ci ildə 70 min nəfərə enmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd olunmuşdur. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinə, XIX əsrdə və XX əsrin əvvəllərində torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən Sovet hakimiyyəti dövründə də azərbaycanlılar dəfələrlə onlara qarşı yeridilən antihumanist siyasətlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş millətçi siyasətin əyani təzahürüdür. Həmin siyasətin davamı olaraq, 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildə yenidən baş qaldıran erməni separatizmi, ermənilərin Dağlıq Qarabağda apardığı işğalçı müharibə və etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlı soyqırımı qurbanlarının sayı daha da artmışdır. Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 4 mindən çox azərbaycanlı əsir və itkin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmış, azərbaycanlıların yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Bütün bunların nəticəsində təkcə XX əsrdə 2 milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri qanlı terror və soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Demək olar ki, indi Azərbaycanda erməni millətçilərinin zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

*Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoymalıdır*

Dünyada misli görünməmiş qanlı üsullarla zaman-zaman Azərbaycan xalqına qarşı çoxəsrlik tarixə malik düşmənçiliklərindən əl çəkməyən ermənilər yaranmış tarixi şəraitdən sui-istifadə edərək, xalqımızın başına min bir müsibətlər gətirmiş, torpaqlarımızın 20 faizdən çoxunu işğal etmişlər. Bu gün tək Azərbaycan üçün deyil, həm də regionumuz üçün təhlükə mənbəyinə çevrilmiş Ermənistan bir tərəfdən öz işğalçılıq siyasətinə haqq qazandıraraq, zəbt etdiyi Azərbaycan torpaqları üçün separatçı-şovinist status əldə etmək istəyir, hələ bu azmış kimi Naxçıvan məsələsini də ortaya atır. Digər tərəfdən isə özlərinin "əzabkeş xalq" olduqlarını dünyaya car çəkir, "genosid qurbanı" olduqlarını təsdiq elətdirmək üçün dəridən-qabıqdan çıxır, dünya ictimaiyyətini aldadaraq, tarixi saxtalaşdırırlar. Lakin ermənilər Azərbaycan Ordusunun gücünə yaxşı bələddirlər və döyüşdən-döyüşə möhkəmlənərək qüdrətli bir orduya çevrildiyini də çox gözəl bilirlər.

Ümummilli lider Heydər Əliyev siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar dövlətimizin siyasətini belə bəyan etmişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Aprel döyüşləri Azərbaycan Ordusunun təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində şanlı qələbəsi kimi tarixə düşdü. Həmin döyüşlər Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını, cavanından, qocasından asılı olmayaraq, daim döyüşə hazır olduğunu göstərdi. Xalqımız, xüsusən də, gənclər həmin günlərdə yürüş keçirərək ordu ilə xalqın birliyini nümayiş etdirdilər, torpaqlarımızın işğaldan azad olunmasına hər an hazır olduqlarını göstərdilər. Aprel döyüşləri və Naxçıvandakı uğurlu əməliyyatlar düşmən üzərində böyük zəfərinin başlanğıcı olaraq görsətdi ki, Azərbaycan Ordusu istənilən zaman öz torpaqlarını azad etməyə və ərazi bütövlüyümüzü bərpa etməyə hər an hazırdır!

Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu mənəvi-psixoloji hazırlığını daim artırmalı, hərbi intizamın möhkəmləndirilməsinə çalışmalı, Vətən sevgisini hər şeydən üstün tutmalı və yurdumuzu düşmən təcavüzündən azad etmək üçün daim döyüşə atılmağa hazır olmalıdır. Bunu bizdən bir milyondan artıq qaçqın düşmüş soydaşımız və erməni işğalçıları ilə qanlı-qadalı döyüşlərdə şəhid olmuş qəhrəman oğulların ruhu tələb edir.

**İdeoloji İş və
Mənəvi-Psixoloji
Təminat İdarəsi**

Ordu və cəmiyyət

# "Ordu quruculuğunda qazanılan uğurlar bizi də qürurlandırır"

*Vətənin qoruyucusu kimi ordu şərəfli bir vəzifəni həyata keçirir. Bu vəzifənin müqəddəsliyini dərk edən hər kəs daim ordusuna inanıb, güvənib. Ordu xalqın, xalq ordunun dayağı olub. Ordu ilə cəmiyyətin sıx əlaqəsi başqa şəkildə də davam etdirilir. Dövlət və özəl müəssisələrin işçiləri vaxtaşırı döyüş bölgələrində əsgərlərlə görüşür, bayram tədbirlərində iştirak edirlər. Bu görüşlər xalqın daim əsgərinin yanında olduğunu, ona sonsuz güvəndiyini nümayiş etdirir. Növbəti belə görüşlərdən biri Novruz bayramı ərəfəsində baş tutdu.*





Novruz bayramı xalqımız tərəfindən həmişə böyük sevgi ilə qarşılanan, baharın gəlişi, torpağın oyanması, milli-mənəvi dəyərlərimizi özündə birləşdirən ümumxalq səviyyəsində qeyd olunan adət-ənənələrimizi yaşadan el bayramımızdır. Novruz bayramının Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində özünəməxsus yeri var. Bahar bayramı əsrlərdən qalmış ənənələrə sadiq qalaraq hər bir azərbaycanlı ailəsində ilin ən əziz günləri kimi qeyd olunur. Bu bayramı xalqımız məhəbbətlə qarşılayır, ehtiramla qeyd edir. Şəkərbura, paxlava, qoğal, badambura və digər bayram şirniyyatları bişirilir, bayram plovu süzülür, səməni göyərdilir, həyətlərdə bayram tonqalları qalanır. Novruz bayramı xalqın müqəddəs etiqadına söykənməklə, özündə böyük bədii-estetik, mifik, mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir. Ümummilli liderimiz Heydər Əliyevin vurğuladığı kimi, xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran Novruz bayramı ən əziz və sevimli bayramlarından biridir.

Əsrlər boyu xalqımızın ən yüksək ovqatla qeyd etdiyi bu bayram ərəfəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin nümayəndə heyəti ön xətt birləşmələrindən birinin əlahiddə hospitalında oldular.

Əlahiddə hospitalda müalicə olunan zabit və əsgərlərimizə baş çəkib, onların bayramlarını təbrik etmək, mənəvi dəstəklərini, güvənclərini, rəğbətlərini nümayiş etdirmək məqsədi ilə cəbhə bölgəsinə yollanan kollektiv komandanlıq tərəfindən mehribanlıqla qarşılandı.

General-mayor Hikmət Həsənov qonaqları səmimi salamlayaraq, göstərdikləri xeyirxah təşəbbüsə görə onlara minnətdarlığını çatdırdı. Zabit bildirdi ki, bölmələrimiz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı ilə hərtərəfli əhatə olunublar. "Bizim qapılarımız xalqın, ictimaiyyət nümayəndələrinin üzünə hər zaman açıqdır. Belə görüşlər şəxsi heyətə xoş hisslər aşılayır. Həmçinin bu görüşlərdə şahidi olursunuz ki, bütün bölmələrimizdə şəxsi heyətin sosial-məişət şəraiti ən yüksək səviyyəyə çatdırılıb. Yüksək təminatla bərabər, ordumuz ən yeni silahlarla silahlanıb, güclü texnikalarımız, raketlərimiz var. Bunlarla yanaşı, xalqın dəstəyi və güvənci bizi daha da gücləndirir, yenilməz edir. Hər biriniz əmin ola bilərsiniz ki, bölmələrimizin hər biri Ali Baş Komandanın istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə hazır və qadirdir. Belə xeyirxah təşəbbüsləriniz üçün sizə bütün birləşmə adından təşəkkürümüzü bildirir, hər birinizi, ailənizi, yaxınlarınızı Bahar Bayramı münasibəti ilə təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq."

Əlahiddə hospitalda da olan nümayəndə heyəti hospitalın rəisi, tibb xidməti polkovnik-leytenantı Hüseyn Əliyevin müşayiəti ilə əvvəlcə xidməti otaqları gəzərək şəraitilə yaxından tanış oldular. Qəbul, müayinə, əməliyyat və digər tibbi otaqların, müasir tibbi avadanlıqlarla təchiz olunduğunu gördülər. Yeməkxana, istirahət və digər məişət otaqlarının da yüksək təminatının şahidi oldular. Müalicə alan əsgərlərlə görüşüb onların səhhətləri ilə yaxından maraqlandılar. Hospitalla tanışlıq başa çatdıqdan sonra təntənəli bayram tədbiri keçirildi. Novruz bayramına xas olan atributlarla bəzədilən ərazidə tonqal qalandı, bayram konserti təşkil olundu. Qonaqlar şəxsi heyətlə bayram tonqalının ətrafında rəqs etdilər. Novruz bayramına xas olaraq əsgərlərlə yumurta döyüşdürüb, gətirdikləri bayram hədiyyələrini onlara təqdim etdilər.

Şəxsi heyəti təbrik edən Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin sədr müavini Əbülfəz Mehdiyev onlara təbeçilikdə olan bütün həmkarlar təşkilatları kollektivlərin ən xoş arzularını çatdırdı. O bildirdi ki, müasir dövrdə ordu quruculuğunda qazanılan uğurlar Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaradıb. "Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müasir ordumuzun qısa müddət ərzində əldə etdiyi yüksək nailiyyətlər Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən orduya göstərilən böyük diqqət və qayğının parlaq təzahürüdür. Aprel döyüşlərində, Günnüt zəfərində ordumuzun cəbhə xəttində hərbi gücü təsdiqlədi ki, Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Müdafiə Nazirliyi rəhbərliyinin dəstəyi ilə həyata keçirilən vətənpərvərlik tədbirləri cəmiyyətimizdə rəğbətlə qarşılanır. Belə tədbirlər həm orduda, həm də ictimaiyyət arasında yüksək əhval-ruhiyyə yaradır. Bu gün meydanda toplaşmış əsgərlərimizə həsədlə baxıram və düşünürəm ki, onların hər biri xalqın etimadını qazanmış hünərli Vətən oğludur. Doğrudan da, dövlət, xalq o vaxt güclüdür ki, onun qüdrətli



ordusu var. Hamımız qətiyyətli Ali Baş Komandanımıza və əsgər oğullarımıza güvənirik".

Sonra hərbçilərin yaxın və dəyərli dostu, daim ordu mənsubları ilə bir arada olan Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova zabit və əsgərləri təbrik etdi. O qeyd etdi ki, kollektivimiz həmişə olduğu kimi, Vətən müdafiəçilərinin görüşünə böyük həvəslə gəlib və bu görüşlər hər kəsə xoş duyğular aşılayır. "Hər dəfə zabit və əsgərlərimizlə görüşə gələndə qürur duyuram. Belə igidləri gördükcə, onlarla səmimi söhbət etdikcə fərəhlənirəm. Ordumuzun gücünün, qüdrətinin, əsgərlərimizin yüksək döyüş ruhunun şahidi olmaq xalqın bir nümayəndəsi kimi məni çox sevindirir. Dövlətimlə, ordumla, əsgərimlə bir daha fəxr edirəm. Bu gün şahidi olduq ki, hospitalın müasir tibb avadanlıqlarla təchiz olunması ilə yanaşı, təcrübəli və savadlı həkimlər tərəfindən döyüşçülərə nümunəvi xidmət göstərilir. Hospitalın kollektivini və müalicə alan əsgərləri Novruz bayramı münasibətilə kollektivimiz adından təbrik edirəm. Belə dəyərli günləri sizin kimi müqəddəs vəzifəni yerinə yetirən dəyərli insanlarla bir arada keçirməkdən ikiqat sevinc hissi keçirirəm. Sizlərə şərəfli işinizdə uğurlar arzulayıram. Ordu quruculuğunda qazanılan uğurlar bizi də qürurlandırır".

Tədbirin sonunda tibb xidməti polkovnik-leytenantı Hüseyn Əliyev öz hədiyyələri ilə bayram ərəfəsində əsgərlərin görüşünə gəlmiş qonaqlara minnətdarlığını bildirdi. "Əziz qonaqlar, bu bayramı bizimlə birlikdə qeyd etməyiniz xalqın orduya sonsuz güvəncinin nəticəsidir. Dövlət və cəmiyyət tərəfindən ordumuza göstərilən bu yüksək diqqət və qayğı gənclərimizin nümunəvi xidmət etməsində, bacarıqlı, vətənpərvər əsgərlər kimi formalaşmasında önəmli bir stimul rolunu oynayır. Sizlərin güvənci və dəstəyi bizim gücümüzə güc qatır, xoş hisslər aşılayır. Biz də kollektivimiz adından sizi əziz bayram münasibəti ilə təbrik edir, gətirdiyiniz hədiyyələrə, bayram sovqatlarına görə minnətdarlığımızı bildiririk".

Tədbir qonaqlarla əsgərlərin şən musiqi sədaları altında maraqlı rəqsləri ilə davam etdi. Sonda həmkarlarla əlahiddə hospitalın kollektivi xatirə şəkli çəkdirdilər.

**Leytenant Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
fotolar
kiçik çavuş
Nurlan MEHDİYEVİNDİR**



# “Mənim dünyam” adlı bədii yaradıcılıq sərgisi keçirildi

*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin təşkilatçılığı ilə hərbi qulluqçuların və ailə üzvlərinin xüsusi istedad və bacarıqlarını nümayiş etdirmək, hərbi kollektivdə milli-mənəvi dəyərlərə bağlılığın formalaşdırılması məqsədi ilə əl işlərindən ibarət "Mənim dünyam" adlı bədii yaradıcılıq sərgisi keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestrinin, Rəssamlar İttifaqının nümayəndələri, hərbi qulluqçular və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə mayor Ramil Qasımov sərgi haqqında geniş məlumat verərək bildirdi ki, mədəniyyət tarixi sahəsində qazanılmış təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. "Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Milli-mənəvi dəyərlərimizdən biri də mədəniyyətimiz, incəsənətimizdir...".

Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova bildirdi ki, biz bu məkana insan duyğularının təlatümündən yaranan ən ecazkar və sehrli bir sənət olan incəsənətin hərarətli işığına yığılmışıq. “İnsan təbiətin yaratdığı canlılardan biri olsa da yeganə, varlıqdır ki, hər şeyə yaradıcı münasibət bəsləyir. Bu boyda dünyaya sığmayanda özünün yaratdığı dünyaya sığınır, burada rahatlıq tapır. Özünün yaratdığı dünyadakı hisslərini, düşüncələrini çəkdiyi rəsm əsərlərinə, əl işlərinə köçürür. Özünü ifadə etməyə çalışır. Tədbirin adını təsadüfən "Mənim dünyam" adlandırmamışıq. Çünki burada nümayiş etdirilən hər bir əsər, hər bir əl işi müəllifin daxili dünyasının ifadəsidir..."

Əməkdar incəsənət xadimi Rafiq Kərimov rəsm sənətinin tarixindən söz açdı.

Əməkdar rəssam Aydın Rəcəbov qeyd etdi ki, dünyanın ən qədim xalqlarından olan Azərbaycanın mədəniyyəti çox zəngindir. Əgər bir xalqın mədəniyyəti yoxdursa, demək ki, heç o xalq mövcud deyil. Hər bir sahədə mədəniyyət var. Bunlardan biri də incəsənət mədəniyyətidir. İncəsənətin bütün sahələri bir-biri ilə bağlıdır.



Sərgi rəngkarlıq, dekorativ tətbiqi sənət, qrafika, bədii toxuculuq (tikiş, naxış), maket və digər əl işləri üzrə sahələri əhatə edirdi.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin maraqlı konsert proqramının sədaları altında iştirakçılar sərgi ilə daha yaxından tanış oldular.

Gizir Mehman Şıxəmirovun, baş çavuş Ellada Allahverdiyevanın, əsgər Əziz Nəbiyevin, hərbi qulluqçuların ailə üzvlərindən Məhin İbrahimovanın, Sehri və İnci Zeynalabdinovaların, Aylin Hüseynlinin və başqalarının əl işləri maraqla qarşılandı.

Sonda yaradıcı iştirakçılara fəxri fərmanlar təqdim olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Bayram ərəfəsində ümumordu iməciliyi

*Martın 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Əlahiddə Ümumqoşun Orduda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ərazilərində ümumordu iməciliyi keçirilib. İməcilik zamanı hərbi şəhərciklərdə, hərbi hissələr, inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağac və gül kolları əkilib, eləcə də yaşıllıq zolaqları salınıb.*



Xalqın min illərlə yaradılan, formalaşan, məzmunu dəyişsə də, mahiyyəti dəyişməyən adətləri də var. Yaşadılan, illərlə təkmilləşdirilən belə adətlər, əsasən, xalqın formalaşmasında müstəsna dərəcədə əhəmiyyətli olur. Xalqın əxlaq kodeksinin dünyəviləşməsində, fərdlərin şəxsiyyətləşməsində, insanların bir-birinə münasibətinin həssaslaşmasında ənənə kimi yaşadılan, zamanında el-oba miqyasını da aşan belə adətlər bütün məqamlarda dövlətçiliyə xidmət edib. İməcilik belə adətlərdəndir.

Müstəqilliyə qədərki dövrdə başqa mahiyyət kəsb edən iməcilik müstəqil Azərbaycan Respublikasında dövlətə, dövlətçiliyə bağlılıq kimi davam etdirilir və etdiriləcəkdir.

İməcilik bu və ya digər işin könüllülük əsasında birlikdə, kollektiv şəkildə icrası deməkdir.

İməcilik eyni məqsəd naminə qarşılıqlı yardımlaşmadı.

Önsuz da hərbi hissələrdə səliqə-sahman hər gün aparılır. İməcilikdə bu proses həm də yüksək kollektivçilik ruhu ilə yerinə yetirilir. "Xidmət yerindən hərbi hissəyədək" - bu cari iməciliyə ümumi məqsəd hesab edilə bilər. Belə tədbirlər zabit-əsgər, əsgər-əsgər münasibətlərinin daha ali duyğular əsasında formalaşmasını da təmin edir.

İməcilik Azərbaycan Ordusunda da bu mahiyyətlə keçirilir.

Yazın gəlişiylə təbiətdə gözoxşayan dəyişmələr hiss olunur. Bu iməcilik də belə dəyişmənin təzahürü idi. Yazın gəlişi insanların üreyini coşdurur, onların həyat fəlsəfəsini dərinləşdirir. Belə iməciliklər təkcə ərazinin abadlaşdırılması, səliqə-sahmana salınması ilə məhdudlaşmır. İməcilikdə fərdi məsuliyyət də formalaşır, kollektivçilik ruhu daha da möhkəmləndirilir ki, bunlar da şəxsi heyətin mənəvi-psixoloji hazırlığında həmişə əhəmiyyətli olur.

Builki iməcilikdə ərazilərdə ağacların dibi yumşaldıldı, budandı, yeni şitillər basdırıldı.

Hamı inanır ki, Azərbaycanda daha genişmiqyaslı iməcilik Böyük Qələbədən sonra keçiriləcək. O iməcilik quruculuq iməciliyi olacaq.

**"Azərbaycan Ordusu"**

# MOİK fasiləyə lider kimi yollandı

*MOİK-in də çıxış etdiyi futbol üzrə Azərbaycan I divizionunda 19-cu turdan sonra fasilə yaranıb. Yığma komandaların oyunları ilə əlaqədar yaranmış fasiləyə isə MOİK 4 xallıq fərqlə lider kimi yollanıb.*

"Hərbçilər" mart ayında ard-arda 2 qələbə qazanaraq uğurlu seriyanı 6 oyuna çatdırıb. Azər Bağırovun yetirmələri əvvəlcə ən yaxın rəqibi "Sumqayıt-2" ilə səfərdə qarşılaşıb. Komandamız əzmkarlıq nümayiş etdirərək son dəqiqələrdə qələbə qolunu vurub. İlk hissəsində qol olmayan görüşdə hesabı cinah asmasını başla dəqiq qapayan İbrahim Qədirzadə (54-cü dəqiqə) açıb. Qapıçımızın kobud səhvindən sonra rəqib hesabı bərabərləşdirsə də, Ordu Klubunun üzvləri yüksək əzmkarlıq nümayiş etdirib. Oyunun sonuna 3 dəqiqə qalmış divizionun bombardiri Raul Yaqubzadə cari mövsümdə 15-ci qolunu penaltidən vurub.

MOİK martda ikinci qələbəsini isə "Səbail-2" komandasını üstələməklə əldə edib. Komandamız oyunun əvvəlindən üstünlüyü ələ keçirərək rəqibə göz açmağa imkan verməyib. "Hərbçilər" elə ilk hissədə iki cavabsız qol vurmaqla matçın taleyini həll edib. Raul Yaqubzadə əvvəlcə Əli Sadıxovun (12-ci dəqiqə) fərqlənməsi üçün assistent rolunda çıxış edibsə, sonradan özü fərqlənərək (44-cü dəqiqə) ardıcıl 4-cü oyunda qola sevinib.

Hazırda Azər Bağırovun yetirmələri 19 turdan sonra 47 xalla turnir cədvəlinə başçılıq edir.

MOİK növbəti oyununu martın 29-da səfərdə "Ağsu"ya qarşı keçirəcək.

**Elvin YAQUBOV**

Kapitan Abbaslı Məftun Abbas oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 254
Nüsxə 3950